INTERNATIONAL JOURNAL OF FILOLOGIA

International Journal of Filologia (IJOF)
ISSN: 2667-7318 Yıl: 3, Sayı: 4, Kış 2020 Yayımlanma Tarihi: 30.12.2020

# MODERN DÜZYAZIDA İNSAN VE DÜNYA MODELI (“MÜKEMMEL INSAN” KAVRAMI)

# MODEL OF THE WORLD AND MAN IN MODERN PROSE (THE CONCEPT OF "PERFECT MAN")

**Doç. Dr. Lala HASANOVA**

Azerbeycan Milli İlimler Akademisi, Nizami Gencevi Onuruna Edebiyat Enstitüsü, hltlala@mail.ru

**Makale Bilgisi / Article Information**

**Makale Türü:** Araştırma Makalesi
**Yükleme Tarihi:** 15.08.2020
**Kabul Tarihi:** 11.11.2020
**Yayımlanma Tarihi:** 30.12.2020
**Sayı:** 4
**Sayfa:** 124-134

**Article Information:** Research Article
**Received Date:** 15.08.2020
**Accepted Date:** 11.11.2020
**Date Published:** 30.12.2020
**Volume:** 4
**Page:** 124-134

**Atıf / Citation**

HASANOVA, L. (2020). Modern Düzyazıda İnsan ve Dünya Modeli (“Mükemmel İnsan” Kavramı). *International Journal of Filologia*, 3 (4), 124-134.

HASANOVA, L. (2020). Model of The World And Man in Modern Prose (The Concept Of "Perfect Man"). *International Journal of Filologia*, 3 (4), 124-134.

International Journal of Filologia (IJOF) ISSN: 2667-7318 Yıl: 3, Sayı: 4, Kış 2020
Yayımlanma Tarihi: 30.12.2020

*Doç. Dr. Lala HASANOVA*

# MODERN DÜZYAZIDA İNSAN VE DÜNYA MODELI (“MÜKEMMEL İNSAN” KAVRAMI)

## Model of the world and man in modern prose (the concept of "perfect man")


### ÖZ

Bağımsızlığın ilk yıllarında Batılı yazarların Azerbaycan düzyazısı üzerindeki etkisi güçlüydü ancak Doğu motiflerine ve Sufi felsefesine ilgi artıyor. Doğu bağlamıyla yakınlaşma, edebiyatımızın tüm Türk edebiyatı ile ortak analizi açısından ilginçtir.
Murad İbrahimbeyov'un Şebekesi ve Elif Şafak'ın Ustam ve Beni tarihi dönemi canlandırırken, Mubariz Jafarli'nin Yapıcısı modern dönemi canlandırıyor ve yüzyıllardır insanlığı hayran bırakan anıtlar yaratan mimarın imajı sembolik bir içeriğe sahiptir. Analiz ettiğimiz üç eserde aynı güdü - güç ve sanat, hükümdarın ve sanatçının kaderi - paralel olarak hayata geçiriliyor ve sanatçının daha yüksek bir insan ("mükemmel insan") kavramını ifade ettiği ortaya çıkıyor.
Analiz, "mükemmel" insan kavramını canlandırmaya çalışan yazarların, hükümdar ile sanatçı, iktidar ve sanat arasındaki çatışmadan yola çıkarak fikri alegorik-sembolik bir şekilde yeniden canlandırdıklarını gösteriyor. Manevi arayışları yansıtan bu romanlar, insanın evrenin bir parçası olduğunu, sanatın kalıcılığını, insan yaşamının yararsızlığını, hayalleri ve hedefleri ifade etmekte ve kurtuluşun dünyada uyumu sağlamada olduğunu kanıtlamaktadır.
Karşılaştırmalar sonucunda Azerbaycan ve Türk nesirlerinin Doğu motiflerine karşı farklı tutumları olduğu sonucuna varılabilir. Türk yazarın çalışması Sufi motifine yapısökümcü bir yaklaşım içeriyorsa, motifin orijinal içeriğinin Azerbaycanlı yazarlar tarafından korunduğu ortaya çıkıyor. "Benna" romanı ironik bir yaklaşıma sahip olsa da, mistisizmin "yumuşaması" klasik olay örgüsünün önceliğinde değil, modern dönemin olay örgüsünde yer alır. Azerbaycanlı yazarlar için Sufi doktrini modern insan için ideal bir davranış biçimi olarak tanımlanmakta olduğu görünür.

**Anahtar Kelimeler:** Roman, Tasavvuf, Motif, Azerbaycan edebiyatı, Türk edebiyatı


### ABSTRACT

If in the first years of independence the influence of Western writers was noticeable in Azerbaijani prose, then gradually this interest tends to the Eastern - Sufi philosophy. The influence of the Eastern context opens up new perspectives for the comparative study of Azerbaijani and Turkish literature.
In the novel by Murad Ibrahimbekov “Shebeke” and Elif Shafak “The pupil of the architect” the historical period is depicted, and in the novel by Mubariz Jafarli “The Architect” modern reality. In these novels, the image of an architect capable of constructing creations that captivate people for many millennia acquires symbolic meaning. In these novels one and the same motive takes place - the opposition of power and art, ruler and architect, where the architect personifies the concept of “perfect man”. As a result of the analysis, it becomes clear that, trying to portray a "perfect man" through the opposition of the ruler and the architect, power and art, they implement this idea in symbolic and allegorical form. In the novels which describe the moral searches of mankind, the idea is affirmed that man is a grain of the universe, the eternity of art, and the frailty of human life, desires are glorified. Man will be saved only when he can become part of the universe, merge in this eternal harmony. As a result of a comparative analysis, it was found out that Azerbaijani and Turkish authors use oriental motives for different purposes. If in the novel of the Turkish writer there is a deconstructive approach to the idea, then the Azerbaijani authors leave the motive in its primordial, initial form. In the novel "The Architect", although the writer, trying to level mysticism, turns to irony, all this is reflected only in the plot about modernity, without touching on the primordial nature of the classical plot. Azerbaijani authors accept the Sufi motive as the ideal form of relationship for a modern person.

**Key Words:** Novel, Sufism, Motif, Azerbaijani literature, Turkish literature

**International Journal of Filologia (IJOF) ISSN: 2667-7318 Yıl: 3, Sayı: 4, Kış 2020**
**Yayımlanma Tarihi: 30.12.2020**

*Doç. Dr. Lala HASANOVA*

**XÜLASƏ**

Müstəqillik illərinin ilk mərhələsində Azərbaycan nəsrində əsasən qərb yazıçılarının təsiri güclü idisə, zaman keçdikcə, şərq motivlərinə, sufi fəlsəfəsinə maraq artmaqdadır. Şərq konteksti ilə yaxınlaşma ümumtürk ədəbiyyatı ilə müştərək araşdırma baxımından maraq doğurur.

Təhlilə cəlb etdiyimiz üç əsərdə – Mübariz Cəfərlinin "Bənna", Murad İbrahimbəyovun "Şəbəkə", Əlif Şəfəqin "Ustadım və Mən" romanlarında əsrlər boyu bəşəriyyəti heyran qoyan abidələr yaradan memar obrazı simvolik məzmun kəsb etmiş, sənət insanı ali məqsədlərə ucaldan mərhələ olaraq dəyərləndirilmişdir. Hakimiyyət və sənət, hökmdar və sənətkar taleyinin paralel canlandırıldığı romanlarda sənətkarın ali insan ("kamil insan") konseptini ifadə etdiyi bəlli olur.

"Kamil" insanı canlandırmağa çalışan müəlliflər hökmdar və sənətkar, hakimiyyət və sənət qarşıdurmasını əsas götürərək ideyanı alleqorik-simvolik şəkildə canlandırmışlar. Mənəvi axtarışların əks olunduğu bu romanlarda, insanın kainatın bir zərrəsi olduğu, sənətin daimiliyi, insan həyatının, arzularının puçluğu ifadə olunmuş, dünya ilə həmahəngliyin vacib olduğu vuğulanmışdır.

Təhlil nəticəsində, Azərbaycan və türk nəsrində Şərq motivlərinə müxtəlif münasibət sergiləndiyi qənaətinə gəlmək olar. Turk yazıçısının əsərində sufi motivinə dekonstruktiv yanaşma yer alırsa, azərbaycanlı müəlliflər motivin ilkin məzmununu olduğu kimi saxlamışlar. "Bənna" romanında ironik yanaşma, mistisizmin "yumuşaldılması", əsasən, müasir dövrlə bağlı süjetdə əks olunmuş, klassik süjetə siyarət etməmişdir. Azərbaycanlı müəlliflər sufi doktrinasını müasir insan üçün ideal davranış forması olaraq təsvir etmişlər.

**Açar Sözlər**: Roman, Sufizm, Motiv, Azərbaycan ədəbiyyatı, Türk ədəbiyyatı

## Giriş

Sovet dövrü ədəbiyyatını analoji xarici (türk ədəbiyyatı) nümunələrlə birgə tədqiq etmək, motiv, təhkiyə baxımından paralellər aparmaq mümkün deyildi. Bəlli bir zaman keçdikdən sonra, XX əsrin 80-ci illərindən başlayaraq, Azərbaycan ədəbiyyatında formalaşan modernist meyllər, ədəbiyyatın ekzitensial mövzulara yönəlməsi, sovet sisteminin çökməsi ilə təcrid (sosialist realizmi) şəraitində inkişaf aradan qalxdı. Müstəqillik illərinin ilk mərhələsində Azərbaycan nəsrində əsasən qərb yazıçılarının təsiri güclü idisə, getdikcə şərq motivlərinə, sufi fəlsəfəsinə maraq artmaqdadır. Şərq konteksti ilə yaxınlaşma ədəbiyyatımızın ümumtürk ədəbiyyatı ilə müştərək təhlili baxımdan maraq doğurur.

Bəşəriyyəti əsrlər boyu heyran qoyan abidələr yaradan memar obrazının simvolik məzmun kəsb etdiyi əsərlərdə eyni motiv - hakimiyyət və sənət, hökmdar və sənətkar taleyi paralel olaraq canlandırılmış, sənətkar obrazında ali insan ("kamil insan") konsepti ifadə olunmuşdur. Mübariz Cəfərlinin "Bənna" (2012) romanında müasir dövr, Murad İbrahimbəyovun "Şəbəkə" (2016) və Əlif Şəfəqin "Ustadım və Mən" (2016) romanlarında isə tarixi dövr əks olunmuşdur.

Tarixə nəzər saldıqda, hakimiyyət və sənət nümayəndələrinin münasibətlərinin birmənalı olmadığı görünür. Adil hökmdarlar yaradıçı insanlara yüksək qiymət versələr də, sənətkalıq nümunələrinə öz malı kimi yanaşan şahlar, çox zaman sənət işlərinin (abidələrin) təkrar olunmaması üçün sənətkarları öldürməkdən belə çəkinməmişlər. Gücü simvolizə edən hökmdarlar illərin sınağında məğlub olmuş, əsərləri tarixdə iz qoyan sənətkarlar isə ölməzlik qazanmışlar.

İlahi duyğuların nəfs, tamah kimi da düşmənlərlə qarşıdurmasının əks olunduğu bu əsərlərdə personajlar iki qrupa ayrılırlar: maddi və mənəvi nemətlərə güvənənlər. Hökmdarların dağıdıcı, qəddar, sənətkarların isə mənən kamil insanlar olaraq təsvir edildiyi əsərlərin süjet xəttində oxşar məqamlar, personajlar yer almşdır. Məqalədə tədqiq edilən hər üç əsərdə sənətkarlarla bağlı mənəvi harmoniya-əbədilik, hökmdar və onun ətrafındakı insanlar, maddi nemətlərin peşində olanlarla bağlı fanilik ifadə olunur. Təhlilə cəlb etdiyimiz əsərlərdə eyni motiv- şahların hakimiyyət savaşı və yaradıcılığında mükəmməlliyə can atan sənətkarın taleyi alleqorik- simvolik tərzdə nəql edilmiş, şərq mistisizmi-sufizm yer almışdır.



### 1. Sufizmdə "Kamil insan" Konsepti

Təsəsüvvüf romanları, sufi motivlərinin əks olunduğu romanlar Türk və Ərəb ədəbiyyatında XX əsrin ikinci yarısından, Azərbaycan ədəbiyyatında isə ötən əsrin sonuna doğru, əsasən 90-cı illərdən başlayaraq yaranmışdır.

Təsəvvüf, irfani ədəbiyyatı postsovet ölkələrində olduğu kimi, Azərbaycanda da sovet quruluşu çökdükdən və mövcud qadağalar aradan qalxdıqdan sonra geniş tədqiq olunur. Müasir mərhələdə qədim və orta əsrlər dövrü təsəvvüf ədəbiyyatı ilə bağlı tədqiqatlarla yanaşı, bədii ədəbiyyatda da sufi motivlərinə müraciət artmaqdadır. Kökündən ayrılan, yanlış dəyərlərə yönlənən müasir cəmiyyətdə əzəli və əbədi dəyərlərə müraciət aktuallıq kəsb edir.

Təsəvvüf romanlarını xarakteirzə edən tədqiqatçı bu əsərləri iki qrupa ayırır: "İlki; seyr ü sülûk ve nefis terbiyesi gibi tasavvufun temel konularını ele almak; ikincisi, tasavvufî unsurları postmodern romanlarda birer sanat malzemesi olarak

kullanmak” (Noyan, 2017: 16). Müasir nəsrdə hər iki yanaşma yer alsa da, Azərbaycan ədəbiyyatında əsasən birinci növ əsərlərə daha çox rast gəlinir. “Müasir sənətdə istifadə olunan sufi ideyalar, əsasən, fərqli bədii vasitələr sisteminə daxil olaraq, şərti təhkiyə, xüsusi metaforik-simvolik obrazlıq şəkilində təzahür edir” (Ишанова, (e-makale). Bu romanlarda xarakter, zaman, məkan kimi anlayışların müəyyən qanunauyğunluğa tabe olduğu, məkan olaraq qapalı ərazilərin, dini tikililərin yer aldığı göstərilir (Demir, 2019: 53-54). Fərqli ölkə ədəbiyyatlarında yaranan əsərlərin təhlili bu yanaşmanın funksional olduğunu isbat edir.

Bəşər övladında mənəvi və maddi başlanğıcın mövcud olduğunu iddia edən sufilərə görə, hər kəsin həyatda missiyası - Allahı dərkə yönəlmiş yolçuluğudur. “Vahdet-i vücûd: Arapça, varlığın birliği demektir. Allah'tan başka varlık olmadığının idrak ve şuuruna sahip olmak, bilmek… Vahdet-i vücudu zevken elde eden sâlik, gerçek varlığın bir olduğunu, bunun da Hakk'ın varlığından ibaret bulunduğunu, Hak ve O'nun tecellîlerinden başka hiç bir şeyin bulunmadığını bilir. Her şey, o Bir'in çeşitli şe'nlerinden görünüşlerinden, tecellîlerinden ibarettir” (Çebecioğlu, e-kitab: 281-282). Kamil insan maddi maraqları mənəvi duyğulara qurban verən, ikincinin üstünlüyünü qəbul edən biridir: “... olgun insan demektir. Gerçek insan-ı kâmil, vücûb ile imkan arasında berzahtır; hadis sıfatlarla, kıdem sıfatlarını ve hükümlerin arasını toplayan aynadır. O Hakk ile halk arasında vasıtadır. Hakk'ın feyzi, imdadı onun vasıtasıyla yayılır. Hakk'tan gayri herşey, ulvî veya süflîdir” (Çebecioğlu, e-kitab: 135). Bu yolda adəm övladına əngəl olan məziyyətlərdən biri nəfsdir: “Yine o, nefsi açısından mahv (yok olma) ve isbat (var olma) kitabıdır” (Çebecioğlu, e-kitab: 135). Allahın özünə bənzər yaratdığı insanlardan yalnız “kamil” olanlar maddi aləmi deyil, özünü dərk edərək dünyəvi harmoniyanı, sonda Allahın özünü dərk etməyə nail olurlar. “Kamil” insanlar Yaradanı dərk edərək kainatın sirlərinə bələd olanlardır. Nəzərdən keçidriyimiz əsərlərdə, sənətkarlar bu cür insan olaraq təsvir edilir, sənət ustad memarları yaradana yaxınlaşdıran vasitə (mərhələ) olaraq dəyərləndirlir. Sufinin mətləbinə çatması üçün dörd mərhələni keçməsi gərəkirsə, memarın istəyinə çatması tikdiyi binanın ərsəyə gəlmə müddəti ilə bağlıdır. İmanlı və səbirli olanlar sonda öz məqsədinə nail olur (Abbas Qulu, Sinan), sınaqdan üzü ağ çıxa bilməyənlər isə məhv olurlar (Simnar). Yalnız nəfsinə qalib gəlib, öz istəklərini yenə bilən ustadlar sonda bu ali mətləbə yetişə bilmişlər.



Təhlilə cəlb etdiyimiz əsərlərin əsas personajları olan – Ustad Sinan (“Ustadım və mən”), Simnar (“Bənna”), Abbas Qulu (“Şəbəkə”) kimi surətlərin hər birinin maddi nemətlərə aludə olmadıqları, işlərinə bağlılıqları önə çəkilir. Sənətkarların son məqsədi hökmdarın tərifi və ya alacağı nemtələr deyil, yaradıcısını əsrlər boyu yaşada biləcək sənət əsəri, mükəmməl tikili yaradaraq ilahi harmoniyaya çatmaqdır: “İşlənməyən dəmir pas atır; ömrünü səfilliklə keçirən insan günaha batır, – deyə ustad Sinan tez-tez təkrarlayardı, – xilas yolunundan sapmamaq üçün daim çalışmalısan, iş insanın xilasıdır” (Şəfəq, e-kitab: 98); “Memarlıq, güzgü kimi kainata xas olan harmoniyanı əks etdirir. Əgər sənin qəlbində bu hiss yoxdursa sən heç nə yarada bilməzsən ” (Şəfəq, e-kitab: 45)[1].

---

[1] Rus dilində olan mənbələrdən verilən sitatlar müəllif tərəfindən tərcümə edilmişdir.

Hər üç əsərin əsas personajları dövrünün seçilib sayılan memarlarıdır. Hadisələrin əsas personaj- birinci şəxs tərəfindən nəql edildiyi əsərlərdə şahın tələbi ilə saray tikintisinə başlayan sənətkarların işindən, hökmdarların həyatından və sarayda (“Ustadım və mən”, “Şəbəkə”), ailə daxilində baş verən hadisələrdən (“Bənna”) bəhs olunur. Nəfsi ilə sınağa çəkilən sənətkarlardan yalnız öz hisslərinə hakim ola bilənlər qalib, dünya malına uyanlar isə məğlub olurlar. Beləliklə, qalib olan dünya üzərində hökmran olan deyil, öz hisslərini, istəklərini, nəfsini cilovlaya bilən insandır: "Küçük cihaddan, büyük cihada (Ramazan ayındaki oruç) döndük" Hz. Peygamber ( Çebecioğlu, e-kitab: 199).

### 1.1. Murad İbrahimbəyov “Şəbəkə”

Hüseyn xanın hakimiyyətə gəlməsində Məşədi bəyin rolu, hakim ailə üzvləri arasında yaşanan hakimiyyət savaşı haqqında hekayətlərin sənət və sənətkar haqqında hissələr, nağıllarla növbələşdiyi əsərdə hökmdarlar hakimiyyət uğrunda mübarizə aparırlarsa, sənətkar əsrlərə meydan oxuya biləcək sənət uğrunda carpışır. “Əsl gözəlliyin mütləq bir mənası, anlamı olmalıdır” (İbrahimbəyov, 2017: 62 ); “Ustanın inşa etdiyi bina nə qədər əzəmətli və bahalı olursa-olsun, onun mahiyyətində mütləq bir ismarış olmalıdır. Bina kəhkəşanda nəyinsə kiçik surəti, kainatın pıçıltısı, yaradanın aləminin əksi kimidir” (İbrahimbəyov, 2017:70).

Hadisələrin əsas personajlar tərəfindən nəql olunduğu povestdə, yaşanların çoxrakurslu təsviri yer alır, şəbəkə üslubunu xatırladan təhkiyə xırda-xırda hekayətlərə bölünür.

Əsərin əsas personajları- şah və saray tikmək üçün dəvət edilmiş sənətkardır. Hökmdarlar haqqında hissələrdə, bir nəslin nümayəndələri olan Çələbi xan, Hüseyn xan kimi hökmdarların timsalında şah ailəsinin əcdadlarının gücü, qüvvəsi, bir-birinin qanına susamış qohum-qardaşlar əks olunur. “...hakimiyyət davasında siyasi təxminlərin harda bitdiyini, öz yerini adi vəhşiliyə, heyvani ehtirasların tüğyanına hansı anda verdiyini anlamaq çətin olur” (İbrahimbəyov, 2017: 59). Əmisi Ağakişi qaynatası tərəfindən öldürüldükdən sonra, qohumlarının özünü də öldürəcəyindən ehtiyat edən Huseyn xan, meşədə gizlənərək canını qurtara bilir və Məşədi bəyin köməyi ilə taxta çıxır. Onun oğlu şahzadə Kərim uşaq olsa da, hakimiyyətə gəlmək üçün qohumları ilə üz-üz gələcəyini dərk edir. Hakimiyyətə gəlmək üçün digər varisləri məhv etməli olduğunu anlayır, lakin, o, bu ağır bədəli üzərinə götürməkdən çəkinir. Sənətə, elmə böyük marağı olan şahzadə nəslinin digər nümayəndələri kimi yaşamaq istəmir. Oğlunun bu keyfiyyətlərini müşahidə edən atası övladına dəstək olaraq, onun elm, sənət yolunu tutmasına yardım edir. Beləliklə, gücün səltənəti sənətin təntənəsi ilə əvəzlənir.

Şah hakimiyyətinin nüfuzu əldə etdiyi torpaqlar, taxt-tacın qorunması uğrunda savaşla xarakterizə olunursa, Abbas Qulu sənətin incəliklərinə bələd olan ustad memar olaraq təsvir edilir, onun seçilmişliyi vurğulanır: “bacarıqlı inşaatçılar az deyil, xalqım ta qədim zamanlardan ağır mərmilərin, divardələn qurğuların zərbəsinə davam gətirə biləcək qala divarları ucaltmağın, qışda isti, yayda sərin olan yaşayış evləri, karvansaralar, başı göyə dirənən, hər qasırğaya dözə bilən minarələr tikməyin sirlərinə dərindən vaqifdir. Mənə tamam fərqli, başqa sənətkar lazım idi” (İbrahimbəyov, 2017: 53).

Hakimiyyət sevdası ən yaxın insanlar arasına ədavət səpirsə, sənət yanğısı din yadlığı, məkan uzaqlığı tanımır. Şəkidə tikilən sarayın şüşələri, işinə yüksək tələblərlə yanaşan venesiyalı usta Cuzeppo Amayya tərəfindən hazırlanır. "Ustadım və Mən" romanında olduğu kimi, bu əsərdə də, müxtəlif ölkə vətandaşları olan sənətkarların daim bir-brini "izləməsi", əməkdaşlığa hazır olmaları, şəyirdlərini müxtəlif dillər öyrənərək bəşəriyyətin mədəni mirasına sahib cıxmağa yönləndirdikləri əks olunur.

Usta Abbas Qulu ilə birgə povestdə başqa bir necə sənətkar taleləri əks olunmuşdur: əsrarəngiz şüşələr yaradan Cüzepppo Amaya, "Ustad və gözəl şəbəkə", "Rəssam və güzgülər haqqında nağıl"da bəhs olunan sənətkarlar. "Ustad və gözəl şəbəkə" hekayətində əməl və qəlb təmizliyinin sənətkar olmaq üçün əsas şərt olduğu vurğulanır. Bu keyfiyyətlərin sənətkarın nəfs ilə sınaqdan üzüağ çıxması üçün əsas şərt olduğu qeyd olunur: "Sən öz işini ürəklə gördün, yaxşı bir şey yaratdın və əgər sənətkarın ürəyi varsa, nə qədər çalışsa da, kimisə öldürə bilməz" (İbrahimbəyov, 2017: 72).

"Rəssam və güzgülər haqqında nağıl"da xanın sənətkara qarşı əzazilliyi təsvir olunur. Şah bacısını gördüyü üçün, özünün sifarişi ilə onun şəklini çəkən rəssamın işini bitirən kimi öldürülməsini istəyir. Lakin sənətin qədrini bilənlər ustadı şahın ədalətsiz qərarından qorumağa çalışaraq, portretin güzgülərdəki surətlər vasitəsilə canlandırılmasını təklif edirlər. Beləliklə, bu epizodda haqqın nurunu özündə əks etdirən adəm- Şəbustrərinin qneseoloji konsepsiyası (Babayev, 2007: 125) əks olunmuşdur.

"Qəribədir, sarayın dörd bir yanında vəhşilik, qan-qada boydan idi, burada, eninə-uzunu otuz qırx dirsəklik yerdə isə hüzur hökm sürürdü. Belə bir şey ola bilərmi? Əlbəttə, ola bilər. Bunun üçün bir rəssam, bir pul, bir də təbii ki, siyasi iradə lazım idi. Bəlkə hakimiyyətə çatmış bir insanı əsl hökmdara elə bu cür şeylər çevirir? Hüseyn xan belə bir hökmdar oldu. Bəs törəmələri necə, ola biləcəkmi? (İbrahimbəyov, 2017 :74)".

Beləliklə, "sənət"in üstünlüyünün ifadə olunduğu əsərdə sufi motivi insanlar üçün həyat kredosu olaraq əks olunur. Əbədiyaşar sənət dövlətin qəhrəmanlıq salnaməsini əks etdirir, hakimiyyət uğrunda yaşanan ailədaxili çəkişmələr və xəyanətlər, bir sözlə insanları qarşı-qarşıya qoyan pis əməllər isə xatirələrdən silinir.

### 1.2. Mübariz Cəfərli "Bənna"

Nasir Mübariz Cəfərli mistik –alleqorik təhkiyə üslubu ilə fərqlənən üç romanın– "Bərpaçı" (2010), "Bənna"(2012) və "Bağban"(2013) –müəllifidir. Şərqin böyük mütəfəkkiri Ruminin məsnəvisinin bir çox bölmələrinin "b" hərfi ilə baslandığını xatırlasaq, əsərlərin başlıq seçminin təsadüfi olmadığı aydın olur.

"Damladan ümmana, ümmandan damlaya" epiqrafının yer aldığı "Bənna" romanında Nizami yaradıcılığı (Simnar, Neman, Bəhram)[2,] xalq nağılları– üç oğul

[2] Nizaminin "Yeddi gözəl"poemasının hekayətlərindən birində Yəmən şahı Neman, Simnar adlı memara dünyanın ən gözəl sarayını tikməyi sifariş edir. Usta Xəvərnəq adlı möhtəşəm

130

və sevimli oğlun itməsi kimi motivlər, sufi fəlsəfəsinə aid simvollar, rəqəmlərin simvolikası yer alır. Personajlar real insanlar olaraq təsvir edilsələr də, bəzi məqamlarda nağıl qəhrəmanlarını xatırladırlar: usta Simnarın evi həmişə isti havanın hökm sürdüyü, qızılgüllərin ətri ilə hər kəsi bihuş edən sirli bir məkandır.

“Bənna”romanında iki sujet xətti paralel olaraq nəql edilir: ölüm ayağında olan zərgər Neman oğluna usta Simnarı taparaq məscid tikdirməsini vəsiyyət edir. Maddi nemətlərə bağlı, qaba biri olaraq təsvir edilən oğul (Bəhram) atasının vəsiyyətinə əməl etmək üçün ustanın axtarışına yollanır. Ailənin digər oğlu tərəfindən nəql olunan ikinci xəttdə isə hadisələrin alt qatı – zərgərin ailəsindəki münasibət əks olunur. Analarını erkən yaşlarında itirmiş qardaşlar ata himayəsində böyüyür. Ailə üzvləri arasında sevgi və bağlılığın hökm sürəcəyi ehtimal olunsa da, onlar arasında qarşıdurma yaşanır: böyük qardaş və zərgər ata pul, mal hərisliyi ilə seçilirlərsə, kiçik qardaş “uçmaq” arzusu ilə yaşayan, musiqiyə bağlı (musiqi müəlliməsi ilə bağlı epizod) biri olaraq təsvir edilir. Onun dilindən nəql edilən üç qardaş haqqında hekayətdə məsciddən çıxıb meyxanəyə üz tutan, axtardığı qadını məsciddə tapmayan kiçik qardaş, meyxanada tapdığı qadının yanından qeyb olur. Bəhramın usta ilə görüşü ilə bu iki süjet vahid xətt üzrə birləşir, ikinci xəttdəki hadisələrin “xəstə” qardaşın təxəyyülünün məhsulu olduğu aydınlaşır. Beləliklə, roman içində müxtəlif hekayələr uyduran təhkiyəçi sonda əsərin personajlarından birinə çevrilir. Qeyb olan üçüncü qardaşın atasının və qardaşı Bəhramın onun daxilində boğmağa çalışdığı “mən”i olduğu sezilir. “Uçmaq” sevdasına əngəl olan atası və qardaşı onun şikəst olmasına səbəb olurlar. Sonda, kiçik qardaş, qızılgüllərin səltənətində yaşayaraq, usta Simnarın həyata keçirə bilmədiyi yaşam kredosunu tamamlamalı olur.



Zərgər ilə ustanın tanışlığı qəribə vaqe ilə əlaqələnir. İllər öncə ustanı axtaran zərgər ondan ata yurdunda bir mülk tikməsini xahiş edir. Mülkün xüsusi bir sənət nümunəsi olaraq tikilməli olduğu vurğulanır. “Sənət qəribə şeydir, gördüyün işdən ləzzət aldınsa, dünyanın ən xoşbət adamısan. Amma ustalıq başqa meyarlarla ölçülür. Orada xoşbəxtlik yox, yeni cığırlar axtarışıdı əsas. O dərəcəyə yüksəlirsən ki, elm, sənət sənə həqiqi xoşbəxtlik gətirir. Heç bir tacir, mülkədar o mərtəbəyə yüksələ bilməz. Haqqa yaxınlaşmağın yollarından biridir bu. Yəqin ona görə əksər varlılar əsl sənətkara qibtə eləyir” (Cəfərli, 2003: 45). Romanın ən maraqlı epizodu yeddi (3+4) xəncərlə bağlı hissədə əks olunub. Ustanın əziyyətini yüksək qiymətləndirən Neman sonda ona yeddi xəncər göstərərək, öncədən onları verə bilməyəcəyini, sadəcə bu gözəlliyi onun da görməsini istədiyini blidirir. Gözəlliyin sehrinə düşən usta xəncərlərdən birini- dördüncü xəncəri gizlincə özü ilə götürərək Nemanın evini tərk edir. Bununla da, həyatı tar-mar olur, ailəsi kəndin sonuncu sakininə- halqasına çevrilir. Məlumdur ki, sufizmdə üç və yeddi rəqəmləri xüsusi anlam kəsb edir- üç mərhələni keçən insan arif mərtəbəsinə yüksələ bilir, yolunu tamamlamaq üçün insanın yeddi mərhələdən keçməsi gərəkir (Altıntaş, 1986:51-58).

---

sarayın inşa etdikdən sonra, şah daha yaxşı saray tikməməsi üçün memarın qətlə yetirilməsini əmr edir.

Nəzərdən keçirdiyimiz iki əsərdən fərqli olaraq “Bənna” romanında nəfsinin qurbanı olan Usta “kamilliyə” çata bilmir, bu səbəbdən dairə qapanır, nəslinin davamçısı olmur. Simnarla başlanan xətti zərgər Nemanın oğlu davam etdirir. Sonda Bəhramın ustanı öz atasına bənzətməsi, “ötənlərin yenidən yaşanması” ilə hadisələrin konkretliyi aradan qalxır, ikiləşən obraz və əhvalatlar sonda vahid bir ortamda cəmləşmişlər.

### 1.3. Əlif Şəfəq “Ustadım və Mən”

Əlif Şəfəqin yaradıcılığında sufi motivləri (“Pünhan”, “Eşq”) əvvəllər də yer almışdır. Son romanlarından olan “Ustadım və Mən” əsərində hökmdar və sənətkar münasibətləri ilə yanaşı, qədim İstanbul, sah ailəsinin üzvlərinin taleyi, XVI əsrdə ölkədə yaşanan tarixi kontekst - yadelli ölkələrə yürüşlər, elmin və sənətin inkişafı əhatəli şəkildə təsvir edilmiş, bir-birini əvəz edən hökmdarların sənətə və sənətkara münasibəti əsas xətt olaraq izlənmişdir. Möhtəşəm Süleymanın sarayında cərəyan edən hadisələrin əks olunduğu romanda, yaşananlar dövrünün tanınmış memarı ustad Sinanın şəyirdi və saray filinin baxıcısı olaraq çalışan Cahan tərəfindən nəql edilir. Filə olan bağlılığı, fəhmi ilə hər kəsin etibarını qazanan gəncin sərgüzəştləri – sarayda keçirdiyi illər, şahzadə Mihrimah ilə münasibətləri, ustanın şəyirdləri arasında yaşanan rəqabət, paxıllıq, bir sözlə, adi bir uşağın kamil usta olaraq yetirşməsi dövrün geniş mənzərəsi müstəvisində əks olunmuşdur.

Sarayda yaşanan intriqaların, qətllərin sayı artdıqca, usta Sinanın yaratdığı möhtəşəm abidələrin də sayı artır. Ətrafında hökm sürən nifrət və rəqabət mühitinə baxmayaraq, sənətin kamilliyinə varmağa çalışan usta gecə- gündüz işləyir. Həyatın sınağa çəkdiyi insanları özünə şəyird olaraq götürərərk, onlara sənətin incəliklərini öyrədən ustad, eyni zamanda onların qəlbən rahatlıq tapmasına çalışır. Şəyirdlərini xüsusi olaraq seçən Usta Sinan onlarda yüksək insani keyfiyyətlər aşılamağa çalışır. “Ustadı dinlədikcə Cahan Sinanın şəyirdlərini dəqiq xarakterizə edən sözü xatırladı “sınmış” insanlar. İndi, o müəllimin nə üçün məhz onların dördünü özünə şəyird olaraq seçdiyini anladı. O özü, Davud, Nikola və Yusuf – hər biri, həyatla mübarizədə məğlub idilər. Bütün bu illər ərzində ustad onlara yalnız sənətin incəliklərini öyrətmir, həm də onların daxilən rahatlıq tapmalarına çalışırdı” (Шафар, e-kitab: 97).



Dörd şəyirddən biri olan Cahanın macəra, sınaq, yalan, nifrət dolu həyatının əks olunduğu əsərdə, mənfi xüsusiyyətlərini, aldanışlarını dəf edən gənc sənətkar olaraq kamilləşə bilir. Özündən asılı olmayan səbəblərə görə saraya yalanla daxil olan Cahan, özü ilə bağlı həqiqətləri sona qədər ətrafındakı insanlardan gizli saxlamağa məcbur olur. Kiçik yaşlarından anasını öldürən, özünü incidən atalığından qisas almaq və hər an onu ifşa edəcək, saraydan qənimət əldə etməsi üçün oğlanın yalan yolla saraya daxil olmasına yardım edən, Qaret adlı dəniz kapitanı haqqında düşüncələrlə yaşayan gənc sənətə bağlandıqca bu hisslərdən uzaqlaşır, işinə köklənərək sənətkar olaraq yetkinləşir. Cahan həqiqəti zamanla, mərhələ-mərhələ, memarlıqla məşğul olduqca dərk edir. “Burada, bu möhtəşəm məsciddə, özünün bir toz dənəsi qədər kiçik, kainatın isə sonsuza qədər uzanan tikinti meydanı olduğunu anladı. Usta və şəyirdləri məscidlər ucaldır, yaradan isə onların talelərini qururdu. Yaradanın ən böyük memar olduğu əvvəllər heç zaman Çahanın ağlına gəlməmişdi.

Hansı dinə: xristian, müsəlman, cuhud, zərdüştlük - itaət etməsindən asılı olmayaraq dünyanın hər bir sakini eyni görünməz günbəz altında ömür sürür. Müdrik olan hər kəs kainatın ilahi bir memarlıq abidəsi olduğunu anlaya bilər” (Шафar, e-kitab: 49).

Məlumdur ki, sufizm fəlsəfəsində mürşidin tələbələrin yetişməsində böyük rolu var. Mənəvi kamilləşmə yolunda ustadın xüsusi xidməti olduğu qeyd olunur: “İnsanoğlu kendi noksanlarını nadiren görebilir, hele noksanlarını derhal düzeltmesi haline daha az rastlanır. Bu işi sağlıklı bir şekilde yapabilmek ve çabuklaştırmak için bir üstad lazımdır” (Konur, 2005:150). Şəyird müəlliminə baxıb onun kimi olmağa çalışmalı idi. Buna görə də Cahan daim ustadını “öyrənməyə” çalışır, ondan nümunə götürür. Özünə qarşı şah, şəhər sakinlər, şəyirdləri tərəfindən törədilən fitnə -fəsadları səbrlə dəf edən ustadını, müridi caya bənzədir: “...ustad öz əqidəsinə əks getmədən, şəraitə uyğunlaşaraq ən ağır zərbələrin altından belə çıxa bilir. Cahan düşündü ki, özü agacdan, Nikola daşdan, Yusif şüşədən yaranıb. Müəllim isə çaya bənzəyir. Nəsə onun yolunu kəsdikdə o, dayanmır; maneəni aşır, ya da onu yuyub aparır. Əgər maneəni aşmaq mümkün deyilsə, su ən kiçik məsamələrdən keçərək öz yoluna davam edir” (Шафar, e-kitab:75). Sinanın ölümü ilə romanda yer alan müqəddəslik arealı aradan qalxır. Əsərin sonuna doğru sənət və sənətkarla bağlı özünün qurduğu mistik ortamı “ifşa” etməyə çalışan yazıçı (Mihrimahın atası və Cahan ilə münasibətləri, Sinanın qoca dayə ilə əlaqəsinə eyham, Yusifin həyat hekayəti, sənət ustanın dörd şəyirdindən biri olan Davudu daxilindəki nifrətdə azad etmir və s.) reallığın çoxqatlılığına işarə edir. Onların hər biri sevgi və nifrət dolu həyat yaşayırlar. İnsanlar arasında sevgi deyil, nifrət və rəqabətin hökm sürdüyü bəlli olsa da, Cahan ömrünü böyük sevgi abidəsi olan Tac mahalın yaxınlığıda başa vurur.



Romanın süjet xətii bir çox qollara parçalanır- hökmdarların Sinana münasibəti, əhalinin sənətkara qarşı haqsızlığı, Cahan və Mihrimah, Cahan və digər şəyirdlər və s. kimi xətlər gah dedektiv, gah da mistik ortamda birləşir. Bir çox şərq motivlərinin yer aldığı əsərdə, din xadimləri tərəfindən ittiham edilən Leyli-Məcnun adlı ikili adla cağırılan sufi ilə bağlı epizod (İsanı ittiham edən Pontiy Pilat səhnəsi xatırlanır) (Шафar, e-kitab: 23), fəlsəfi fikirlər: “Sən urəyincə olan işlə məşğul olduqda, qəlbin sanki çay kimi axan sevinclə dolur ...” (Rumi), müəllifin dünya ədəbi və fəlsəfi irsi içində gəlişmələrində sərbəstliyini ifadə edir.

**Nəticə**

Beləliklə, məqalədə son illər oxucular və mütəxəssislər tərəfindən maraqla qarşılanan “təsəvvüf” romanları – sufi motivlərindən istifadə olunan əsərlər araşdırılmış, Azərbaycan və türk yazıçılarının yaradıcılıqlarının təhlili nəticəsində mövzunun işlənməsində fərqli və oxşar istiqamətlər müəyyənləşdirilmişdir.

Təhlilə cəlb edilən Mübariz Cəfərlinin “Bənna”, Murad İbrahimbəyovun “Şəbəkə”, Əlif Şəfəqin “Ustadım və Mən”əsərlərində sənət və sənətkar mövzusunun irfani məzmun kəsb etdiyi, sənətkarın “kamil insan”- özündə kainatı əks etdirən biri, sənətin insanları kamilliyə yetirən məqam olaraq təsvir edildiyi aydın olur. Əsas personajları şah və sənətkar olan, nəfsi ilə sınağa çəkilən insanların təsvir olunduğu əsərlərdə döyüş meydanı olaraq insanın daxilində yaşadığı savaş canlandırılmışdır.

Şahların və sənətkarların, maddi və mənəvi dəyərlərin qarşıdurmasında amalı "yaratmaq" olan, sənətlə yaşayanlar qalib olur. İnsanları ayıran, qarşı-qarşıya qoyan hakimiyyət ehtirasına alternativ olaraq ətrafdakı disharmoniyanı aradan qaldıra biləcək, insanları birləşdirəcək yeganə qüvvə olaraq sənətin aliliyindən bəhs edilmişdir.

Araşdıma nəticəsində türk müəllifin sufi motivlərinə dekonstruktiv yanaşdığı, fərqli çözüm verməyə çalışdığı, Azərbaycan nasirlərinin isə klassik motivlərin ilkinliyinə toxunmadıqları, ənənəvi modeli müasir insan üçün həyat kredosu olaraq qiymətləndirdikləri görünür.

Narahat, təşviş və inamsızlığın hökm sürdüyü çağdaş dünyada ilahinin qüdrətinə sığınan insan obrazının aktuallaşması nəsrdə mistik-fəlsəfi romanın önə cıxmasına səbəb olur.

**İstinadlar**


Babayev, Yaqub (2007). *Təriqət ədəbiyyatı: sufizm, hürufizm.* Bakı, «Nurlan».

Cəfərli, Mübariz (2012). «Bənna", *Azərbaycan*, Sayı 3, s.3-66.

İbrahimbəyov, Murad (2016). "Şəbəkə", *Azərbaycan*, Sayı 12, s.50-81

Altıntaş, Hayrani (1986). *Tasavvuf Tarihi.* Ankara: Ankara Üniversitesi İlahiyat Fakültesi Yayınları.

Çebecioğlu, Ethem (e-kitab). *Tasavvüf terimleri ve deyimleri sözlüğü.* http://tasavvufkitapligi.com/i/uploads/429779tasavvuf-terimleri-ve- deyimleri-sozlugu.pdf (Baxıldı: 26. 10.2020)

Demir, Ethem (2019). "Modern Arap Edebiyatında Tasavvufî Roman". *Tekirdag ilahiyat dergisi*, Haziran/June, c. 5, s.1: 39-60

Konur, Himmet (2005). "Mesnevî'de Mürîd-Mürşid İlişkisi". *Tasavvuf İlmî ve Akademik Araştırma Dergisi*. Ankara, Y.6, S. 14, ss.149-157

Noyan, Sema (2017). "1980 Sonrası Popüler Romanlar ve Tasavvuf". *Akademik Platform İslamî Araştırmalar Dergisi,* 1/2 (Nisan ), s. 13-22

Ишанова, А. (e-makale). "Суфийские мотивы и образы в современной литературе"// http://repository.enu.kz/handle/123456789/2832 (Baxıldı: 14.08.2020)

Шафаг, Элиф (e-kitab). *Ученик архитектора.* http://loveread.ec/view_global.php?id=53637 (Baxıldı: 10.08.2020)